12 Noyabr Konstitusiya Günüdür



# Zəfərin qürurlandırdığı Konstitusiya

## Azərbaycanın bütün ərazilərində dövlətimizin konstitusion əsasları təmin olunub

**Bu gün müstəqil Azərbaycan dövlətinin Konstitusiyasının qəbul edilməsindən 29 il ötür. 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsində ölkə vətəndaşları hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan Konstitusiyanın qəbuluna səs verdilər. Həmin il noyabrın 27-dən Konstitusiya qüvvəyə mindi.**

### Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan mütərəqqi Konstitusiya

Konstitusiya hər bir dövlətin Əsas Qanunudur. Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə qarşıya qoyulan başlıca vəzifələrdən biri Konstitusiyanın qəbulu idi. Bu vəzifə 1991-ci il oktyabr ayının 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda öz əksini tapdı. Belə ki, həmin sənədin 32-ci maddəsində qeyd olunur ki, Konstitusiya Aktı Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün əsasdır.

Lakin Azərbaycanda müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələr yeni Konstitusiyanın qəbulu barədə fikirləşmədilər. Bu mənada respublikada yaranmış siyasi-iqtisadi münasibətlər sistemində hüquqi müstəvidə çox ciddi boşluqlar vardı. Sovet hakimiyyəti illərində yaranmış qanunvericilik sistemi müstəqillik dövrünün tələblərinə cavab vermirdi. Yeni siyasi dövrdə isə cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı sivil münasibətlər, insan hüquqları və digər demokratik meyarlar konstitusion tələblər baxımından qeyri-müəyyən idi. Ona görə yeni Konstitusiya və yeni qanunlar qəbul edilməli idi.

Yeni Konstitusiyanın qəbulu yalnız Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə gəlişindən sonra mümkün oldu. Azərbaycanı təhlükələrdən xilas edən, siyasi-hərbi böhranlara son qoyan Heydər Əliyev daha sonra hüquqi dövlət quruculuğuna, respublikamızın inkişafı üçün iqtisadi islahatlara başladı. Bu yolda ilk addımlardan biri yeni Konstitusiyanın qəbulu oldu.

Yeni Konstitusiya müstəqil Azərbaycanın bəyan etdiyi prinsiplərə cavab verməli, dövrün çağırış və tələblərinə uyğun olmalı, dövlətimizin və xalqımızın mənafelərini, ölkənin özünəməxsus xüsusiyyətlərini, milli-mənəvi dəyərləri, insan hüquqlarını, demokratik meyarları ən mükəmməl formada özündə əks etdirən bir sənəd olmalı idi. Dəfələrlə Konstitusiya layihəsinin açıq müzakirəsini keçirən Heydər Əliyev onun müasir və demokratik dəyərləri özündə ehtiva edən formada hazırlanması üçün gərgin əmək sərf etdi. "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır", - deyə Heydər Əliyev müzakirələr zamanı bildirmişdi. Bütün bu müzakirələrin nəticəsində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan mükəmməl Konstitusiya layihəsi ümumxalq səsverməsi yolu ilə qəbul olundu.

### Konstitusiyamızda bəyan olunan niyyətlər həyata vəsiqə alıb

Konstitusiyanın qəbulu respublikamızın müasir tarixinin əlamətdar siyasi hadisəsidir. Ona görə noyabrın 12-si Azərbaycanda Konstitusiya Günü kimi qeyd olunur. Konstitusiyanın qəbulu respublikamızda yeni və pozitiv dəyişikliklərə imkan yaratdı, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Eyni zamanda Azərbaycanın iqtisadi və sosial inkişafı üçün hüquqi əsaslar yaradıldı. Yeni Konstitusiyanın qəbul edilməsi müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində möhkəm və milli maraqları ehtiva edən təməlin yaradılması istiqamətində vacib addım oldu.

"1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Konstitusiya Azərbaycan xalqının inkişafı naminə müasir, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu mərhələsinə keçidi təsbit etmişdir. Bu tarixi sənədin müəllifi xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur", - deyə Prezident İlham Əliyev bildirmişdir.

Demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Konstitusiyamızın preambulasında bəyan olunan niyyətlərdir. 1995-ci ildən ötən 29 ildə Azərbaycanın keçdiyi yol təsdiq edir ki, bu niyyətlərin hər biri uğurla gerçəkləşib.

Qürur hissi ilə qeyd etməliyik ki, 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və ötən il keçirilən antiterror tədbirlərinin nəticəsində bütün ərazilərimiz üzərində milli suverenliyimizin tam təmin olunması nəticəsində Konstitusiyamızda yer alan Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb.

Konstitusiyamızın 11-ci maddəsinə əsasən, Azərbaycanın ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir, respublikamızın ərazisi özgəninkiləşdirilə bilməz. Bu maddədə yer alan prinsiplər də tam təmin olunub. Vətən müharibəsindən və antiterror əməliyyatlarından sonra bütün ərazilərimizdə Azərbaycan dövlətinin konstitusiya əsasları təmin edilib. Ona görə xalqımız Konstitusiya Gününü də daha böyük qürurla qarşılayır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*